Zikrin ən fəzilətlisi: «Lə iləhə illəllah» kəlməsidir, duanın ən fəzilətlisi isə: «Əlhəmdulilləh» sözüdür

Cabir bin Abdullahdan - Allah ondan razı olsun - rəvayət edildiyinə görə o, belə demişdir: Mən Allah Rəsulunun - səlləllahu aleyhi va səlləm - belə dediyini eşitdim: "Zikrin ən fəzilətlisi: «Lə iləhə illəllah» kəlməsidir, duanın ən fəzilətlisi isə: «Əlhəmdulilləh» sözüdür".

[Həsən] [Ət-Tirmizi, Ən-Nəsai əl-Kubrada və İbn Məcə rəvayət ediblər]

Peyğəmbər - səlləllahu aleyhi va səlləm - bizə ən fəzilətli zikrin “Lə iləhə illallah" kəlməsi olduğunu, yəni: Uca Allahdan başqa ibadətə layiq haqq məbud olmadığını və eyni zamanda ən fəzilətli duanın da "Əlhəmdulillah" sözü olduğunu, yəni: Uca Allahın nemətləri bəxş edən, bütün kamil və gözəl vəsflərə layiq olan mənasına gəldiyini xəbər vermişdir.

http://www.sunnah.global/hadeeth/az/show/3567